Azərbaycan dili və ədəbiyyat tədrisi
2026 / Cild 72, Nömrə 3 / 127–134
https://doi.org/10.48445/j3339-2449-0383-f

Azərbaycan toponimlərində qeyri-türk mənşəli adların formalaşma səbəbləri və tarixi-dilçilik xüsusiyyətləri

Aygün Cəfərova [1]

XÜLASƏ

Azərbaycan toponimiyası milli-mənəvi irsin ayrılmaz tərkib hissəsi kimi xalqımızın etnik kimliyini, tarixi yaddaşını və mədəni inkişaf mərhələlərini özündə əks etdirən mühüm onomastik sistemdir. Toponimlər təkcə coğrafi obyektlərin adlandırılması vasitəsi deyil, eyni zamanda müəyyən bir ərazidə tarixən mövcud olmuş etnosların yaşayış tərzi, sosial münasibətləri, təsərrüfat fəaliyyəti və mədəni əlaqələri haqqında qiymətli məlumat daşıyır. Azərbaycan ərazisində toponimlərin böyük bir qismi türk mənşəli olsa da, ölkənin geosiyasi mövqeyi və qədim dövrlərdən etibarən müxtəlif sivilizasiyaların kəsişmə nöqtəsində yerləşməsi burada qeyri-türk mənşəli yer adlarının geniş yayılmasına səbəb olmuşdur. Qafqaz, Hind-Avropa, Sami, Monqol və digər dil ailələrinə aid olan bu toponimlər əsasən qədim etnosların məskunlaşması və kütləvi miqrasiyalar, hərbi yürüşlər, siyasi hakimiyyət dəyişiklikləri və mədəni təsirlər fonunda formalaşmışdır. Qeyri-türk mənşəli toponimlərin tədqiqi Azərbaycan ərazisində tarixən mövcud olmuş etnik-dil münasibətlərinin xarakterini müəyyənləşdirmək, müxtəlif xalqların qarşılıqlı təsirini izləmək və xalqımızın etnogenezinin mürəkkəb mərhələlərini elmi əsaslarla izah etmək baxımından xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan məqalədə qeyri-türk mənşəli toponimlər dil ailələri üzrə təsnif edilir, onların mənşə qatları, fonetik və semantik xüsusiyyətləri, eləcə də Azərbaycan dilinin onomastik sistemində keçdiyi uyğunlaşma prosesləri sistemli şəkildə təhlil edilir.

AÇAR SÖZLƏR

Azərbaycan toponimiyası, qeyri-türk mənşəli adlar, etnotoponim, Monqol toponimləri

MƏQALƏ TARİXÇƏSİ

Göndərilib: 28.03.2026
Qəbul edilib: 19.08.2026

[1]Dissertant, Azərbaycan Dillər Universiteti. Azərbaycan Rəssamlıq Akademiyası. Azərbaycan
http://orcid.org/0000-0002-9396-5148 | aygunjafarr@gmail.com

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Teaching of Azerbaijani Language and Literature
2026 / Volume 72, Number 3 / 127–134
https://doi.org/10.48445/j3339-2449-0383-f

Reasons for the Formation of Names of Non-Turkic Origin in Azerbaijani Toponyms and Their Historical-linguistic Features

Aygun Jafarova [1]

ABSTRACT
Azerbaijani toponymy constitutes an important onomastic system that reflects the ethnic identity, historical memory, and stages of cultural development of the Azerbaijani people, and in this respect functions as an integral component of the national spiritual heritage. Toponyms are not merely means of naming geographical objects; they also convey valuable information about the lifestyle, social relations, economic activities, and cultural interactions of ethnic groups that have historically inhabited a given territory. Although the majority of toponyms in Azerbaijan are of Turkic origin, the country's geopolitical position and its location at the crossroads of various civilizations since ancient times have resulted in the widespread presence of non-Turkic place names. These toponyms, belonging to the Caucasian, Indo-European, Semitic, Mongolic, and other language families, were primarily formed as a result of the settlement of ancient ethnic groups, large-scale migrations, military campaigns, shifts in political power, and sustained cultural influence. The study of non-Turkic toponyms is of particular importance for identifying the nature of historical ethno-linguistic relations in the territory of Azerbaijan, tracing intercultural interaction among different peoples, and providing a scholarly explanation of the complex stages of the ethnogenesis of the Azerbaijani people. In this context, the article classifies non-Turkic toponyms according to language families and presents a systematic analysis of their layers of origin, phonetic and semantic features, as well as the processes of their adaptation within the onomastic system of the Azerbaijani language.

KEYWORDS
Azerbaijani toponymy; non-Turkic place names; ethnotoponyms; Mongolic toponyms

ARTICLE HISTORY
Received: 28.03.2026
Accepted: 19.08.2026

[1]PhD Candidate, Azerbaijan University of Languages. Azerbaijan Academy of Arts. Azerbaijan
https://orcid.org/0000-0002-9396-5148 | aygunjafarr@gmail.com

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Giriş

Azərbaycan toponimiyası xalqın etnik, tarixi və mədəni inkişafını əks etdirən mühüm dil qatıdır. Türk mənşəli adlarla yanaşı, ölkənin çoxəsrlik siyasi və mədəni əlaqələri nəticəsində Azərbaycanda Qafqaz, Hind-Avropa, ərəb, monqol və slavyan dillərinə məxsus toponimlər də formalaşmışdır. Qeyri-türk mənşəli toponimlərin öyrənilməsi Azərbaycan ərazisində mövcud olmuş etnik-dil əlaqələrinin və tarixi proseslərin müəyyənləşdirilməsi baxımından aktuallıq kəsb edir.

Tədqiqatın məqsədi qeyri-türk mənşəli toponimlərin yaranma səbəblərini, mənşə qatlarını və dil-tarixi xüsusiyyətlərini müəyyənləşdirməkdir. Araşdırmanın məqsədi bu toponimlərin Azərbaycan onomastik sistemində tutduğu yeri müəyyənləşdirməkdir.

Metodlar

Tədqiqat tarixi-müqayisəli, etimoloji və deskriptiv metodlara əsaslanır. Araşdırma zamanı Azərbaycan ərazisində qeydə alınmış makro və mikrotoponimlərdən, eləcə də mövzu ilə bağlı elmi mənbələrdən istifadə olunmuşdur. Toponimlər dil ailələri üzrə təsnif edilərək fonetik və semantik baxımdan təhlil edilmişdir.

Nəticələr

- Azərbaycan ərazisində qeyri-türk mənşəli toponimlər əsasən Qafqaz, Hind-Avropa, ərəb, monqol və slavyan dillərinə aiddir.
- Bu toponimlər tarixi miqrasiyalar, istilalar və məskunlaşma prosesləri nəticəsində yaranmışdır.
- Qeyri-türk mənşəli adların əksəriyyəti zamanla Azərbaycan dilinin fonetik və semantik sisteminə uyğunlaşmışdır.

Nəticələr göstərir ki, Azərbaycan toponimiyası çoxqatlı etnik təbəqənin və dil tarixinin məhsuludur. Qeyri-türk mənşəli toponimlər müxtəlif xalqların Azərbaycan ərazisindəki tarixi izlərini əks etdirən etnik-mədəni qarşılıqlı əlaqələrin göstəricisidir. Xüsusilə Qərbi Azərbaycan və Qarabağ bölgələrində toponimlərin dəyişdirilməsi bu sahədə daha dərin tədqiqatlara ehtiyac olduğunu ortaya qoyur.

Müzakirə

A. Bakıxanov tayfa və yer adlarını izah edərək onları qiymətli mənbələr adlandırmışdır. Nəinki əsrlər, minillər belə, bu ölkənin bir çox yerlərinin və tayfalarının ilk adlarını məhv edə bilməmişdir... Əgər ölkənin qəbilələri, kəndləri, binələri və qədim adları geniş tədqiq edilərsə, əhalinin mənşəyini tədqiq etmək mümkün olacaq (Bakıxanov, 2010, s. 58).

Ölkəmizin ərazisində qeyri-türk mənşəli toponimlərin mövcud olması zamanla həmin ərazilərə əcnəbilərin, qeyri-türk etnosların yürüşləri zamanı həyata keçmişdir.

Toponimlərin mənsub olduqları xalqın, etnosun dil xüsusiyyətlərini daşıması mütləqdir. O zaman belə fikir yaranır. Əgər ölkəmizin ərazisində əcnəbi, qeyri-türk mənşəli toponimlər varsa, onlar nə zaman dilimizə daxil olmuşdur? Hansı tarixi, ictimai-siyasi proseslərin nəticəsidir? Bunları araşdırmaq üçün, ilk növbədə, dilimizdə mövcud olan toponimlərin mənşəcə təsnifatı məsələsinə aydınlıq gətirilməlidir.

Azərbaycan toponimləri sırasında müxtəlif dillərə məxsus toponimik laylara rast gəlinir. Buna səbəb ölkə ərazisində son minilliklərdə müxtəlif dil və dialektlərdə danışan tayfaların məskunlaşmasıdır. Aparılan arxeoloji araşdırmalar nəticəsində aşkar olunan müxtəlif yaşayış düşərgələri, həmin düşərgələrin sakinləri, onların dil xüsusiyyətləri müəyyənləşmiş, ümumi fikirlər formalaşmış, nəticədə toponimlər dillər üzrə təsnif edilmişdir. Ümumi şəkildə toponimlərimizi V. Əliyev aşağıdakı kimi təsnifləndirmişdir:

1. Türk-Azərbaycan dillərinə aid toponimik təbəqə;
2. Qafqaz dillərinə aid toponimik təbəqə;
3. Hind-Avropa dillərinə aid toponimik təbəqə;
4. Sami dillərinə aid toponimik təbəqə;
5. Monqol dillərinə aid toponimik təbəqə (Əliyev, 1998, s. 103).

Türk-Azərbaycan dillərinə aid toponimlər. "Türk-Azərbaycan dillərinə aid toponimik təbəqə" kəmiyyət və areallığı baxımdan daha zəngindir. Bu təbəqəyə xas olan toponimlər istər beynəlxalq səviyyədə, istər türkoloji dilçilikdə, istərsə də Azərbaycan dilçiliyində kifayət qədər tədqiq edilsə də, hazırda yenə araşdırılır və yeni faktlar üzə çıxarılır. Araşdırmaların nəticəsi onu göstərir ki, Azərbaycan ərazilərində məskunlaşmış aborigen etnoslar, əsasən, türk etnosları olmuş, Azərbaycan türklərinin bir xalq kimi formalaşmasında iştirak etmiş və öz adlarını toponimlərdə qoruyub saxlamışlar.

Qeyri-türk mənşəli toponimlər türk mənşəli toponimlərdən kəmiyyət etibarilə azlıq təşkil edir. Eyni zamanda ölkəmizdə konkret ərazilərdə yaşamışlar. Yəni həmin adların mənsub olduğu etnoslar kompakt şəkildə müəyyən ərazidə məskunlaşmış coğrafi məkanları adlandırmışlar.

Qafqaz dillərinə aid toponimlər. Qeyd etdiyimiz təsnifatda ikinci qrupa Qafqaz dillərinə məxsus toponimlər daxildir. Bu təbəqəyə aid olan toponimlərə ölkəmizin, xüsusilə şimal və şimal-qərb bölgəsində, İsmayıllı, Balakən, Quba-Dərbənd və az sayda Gədəbəy, Tovuz, Ağstafa, Qarabağ ərazilərində rast gəlinir.

İlk növbədə, Quba, Xaçmaz, Qusar rayonlarında ləzgi, xınalıq, buduq, qrız mənşəli toponimlərə rast gəlirik. Bu azsaylı xalqlar kompakt şəkildə elə bu ərazilərdə məskunlaşmışlar. Eyni zamanda bu qrupa daxil olan qeyri-türk mənşəli adlar, əvvəldə də qeyd etdiyimiz kimi, mikrotoponimlərdən ibarətdir. Burada qeyd etdiyimiz buduqlar və xınalıqlar elə eyni adlı Buduq və Xınalıq kəndlərində yaşayırlar. Həmin ərazilərin

ətraflarındakı müsbət və mənfi relyef quruluşlu toponimlər-oronimlər özləri də Azərbaycan-türk mənşəlidir.

Qafqaz dillərindən ləzgi mənşəli toponimlər xınalıq və buduq dilində danışanlardan daha çoxluq təşkil edir və geniş yayılma arealına məxsusdur. Əsasən, Xaçmaz, Quba, Qusar ərazilərində məskunlaşan bu xalqlar daha çox ləzgi dilindəki vats-çay; vir-göl; qam-qobu dərəsi; qer-çay vadisi; suv-dağ; xür-kənd; kan-daban, dağdibi; girve-keçid; ven-otlaq; vini-yuxarıxay-uçurum və s. apelyativlərin iştirakı ilə formalaşmış toponimlərdir. Ərazidə türk mənşəli oba və yurd coğrafi nomenlərinin iştirakı ilə düzəlmiş adlar çoxdur.

Azərbaycan ərazilərindən İsmayıllı (Çaxetiya ərazisi), Tovuz, Ağstafa bölgələrində azsaylı Qafqaz xalqlarından udinlər, saxurlar, avar, gürcü, ləzilərin məskunlaşması ilə bağlı olaraq eyni mənşəli toponimlərə də rast gəlmək mümkündür. Bəzən Azərbaycan ərazilərindəki Kurmux (Kurmuxçay), Katrux, Mamrux, Katex, Matsex və s. adlar fonetik cəhətdən gürcü adlarına bənzədilmiş və mənşəyi düzgün araşdırılmamışdır. Bu adlar qədim tarixə malik Albaniya dövrünə aid alban toponimləridir. Tədqiqatçıların fikrincə, bu adların tərkibindəki -mux, -rux, -ux, -ax şəkilçiləri toponmlərin, hidronimlərin yaranmasında iştirak edən alban mənşəli cəmlik bildirən şəkilçilərdir. Qax-Balakəndə Kür qobu Kür çayının ən qədim adıdır. Kurmux qobular (Kürmükçay); Kormux. Katrux və s. yuxarıda adları qeyd edilmiş toponimlərin tərkib komponentlərinin mənası: kat/kaq-qırıq, yarıq dərə, qobu; katex-azsulu çay, "suyu az-az gələn qobu" deməkdir.

Dilimizin onomastik sistemində avar və saxur toponimlərinə də, əsasən, şimal rayonlarında Qax-Balakəndə rast gəlmək olur. Zaqatala-Qax zonasında mövcud olan Qadiy, Qarkay, Qaçarpriy, Sucaray, Xalıxiy, Dabalt, Qiril, Avagel, Məmagel, Rucagel, Piçağul və s.oronimlər; Qoray, Axu, Qas, Caqal, Quriy, Qusuriy və s. adonimlər; Marsan, Mamriy, Pilkan, Pipan, İlqan, Çər, Qəs, Qatix, Sıvaqil, Qarqvay kimi oykonimlər bunlara nümunədir (Əliyev, 1998, s. 124).

Hind-Avropa dillərinə aid toponimlər. Üçüncü qrupa aid olan toponimlər hind-Avropa dillərinə xas olan toponimlərdir. Buraya, əsasən, iran, fars, tat, talış, kürd, rus mənşəli adlar daxildir.

Qafqaz dillərinə xas toponimlər Azərbaycanın konkret bölgələrində məskunlaşmış qeyri-türk etnosların cəm şəkildə məskunlaşdığı ərazilərdir. Bunların arasında çox az miqdarda makrotoponim, qalanları isə mikrotoponimlərdir (Lüğət, 2007).

IX–XI yüzilliklərdən etibarən, ölkəmizin Qarabağ bölgəsinə zaman-zaman ermənilərin köçürülməsinə və elə həmin vaxtdan da onların məskunlaşdığı ərazilərdə toponimlərin ermənilşdirilməsinə başlanılmışdır. XX əsrin 20-ci illərindən Qərbi Azərbaycan ərazilərində qondarma Ermənistan respublikasının yaradılması ilə bu böyük ərazilərdə türk mənşəli adlar ermənilşdirilməyə başlamış, hazırda, demək olar ki, bu proses başa çatdırılmışdır (Axundov, 1983, s. 101). Məsələn; XVIII əsrdə (1980-ci illərdə) Şuşa şəhərinin yaxınlığında Xankəndi məntəqəsi salınmışdır. 1923-cü ildə həmin ad

dəyişdirilmiş, komissar Stepan Şaumyanın şərəfinə "Stepanakert" adlandırılmışdır. Stepanakert adının mənası Stepan qalası kimi izah edilir.

Göründüyü kimi, bu adlar erməni dilinin fonetik sisteminə uyğunlaşdırılmış, bəzən hərfi tərcümə edilməklə yaranmış, bu ərazilər sonra zorla Ermənistanın ərazilərinə daxil edilmişdir. Qarabağın toponimlərini tədqiq edən R. Yüzbaşovun araşdırmalarına görə, burada mənaları dəqiq bilinən yüz yetmiş bir addan yüz on dördü Azərbaycan-türk dilindədir və onlar oykonim, oronim, hidronim olmaqla, makrotoponim statusunda olmuşlar. Elə bu faktın özü də Qarabağın azərbaycanlı türklərin yurd yerləri olduğunu isbat edir (Əliyev, 1998, s. 125).

İrandilli tayfaların əsasən Xəzər dənizi sahillərində məskunlaşmasına görə, həmin dillərə məxsus olan bu coğrafi adlar elə həmin ərazilərdə yayılmışdır. Xəzər dənizinin adlarından biri kimi qədim mənbələrdə "Qirkan" adının qeyd edilməsi də bu prosesin nəticəsidir. "Qirkan" sözü iran dillərinə əsaslanaraq "Qorq" canavar, "kan" məkan anlamında izah edilmişdir.Abşeron yarımadasındakı Gürgan çayı, Gürgan adası, Girkan (Lənkəran) meşəsi adlarının da həmin sözlə qohumluğu göz qabağındadır.

Azərbaycan ərazilərində skiflərlə bağlı olaraq yaranmış, qədim Sakisen (sakların məkanı)/Şakaşen/Artsax/Çikakar (skif qayası), Araksen, Kambisen kimi adlar iran mənşəli hesab edilmişdir. Onu da qeyd etmək lazımdır ki, iran dilli toponimlərin tərkibində dilimizə keçmiş "stan, van, şenabad və s." komponentlərindən ölkəmizdə müasir dövrə qədər istifadə edilmişdir (Adilov, 1987, s. 23). Əsasən, son dövrlər yaranmış memuar-xatirə toponimlərdə bu adlandırmadan istifadə edilmişdir: Sabirabad, Cəlilabad, Sabirkənd və s.

Slavyan dillərinə aid toponimlər. Samur nahiyəsindəki Mikrah kəndinin və Qaziqumuq əhalisinin çoxu, məlum olduğu kimi, rus tayfasındandır. Onlar xəzərlərin istilası dövründə bu ərazidə məskunlaşıblar. Bundan əlavə onların zahiri qiyafəsi və bir çox adət və ənənələri də buna şahiddir. Qaziqumuq əhalisi indi də salam əsnasında papaq götürüb bir-birinə "izrov" deyirlər. Bu söz ola bilər ki, rus dilindəki "zdorov" sözündən alınmışdır (Bakıxanov, 2010, s. 20).

Tarixi, ictimai-siyasi prosesləri izlədikdə məlum olur ki, slavyan-rus mənşəli toponimlər Azərbaycan toponimiyasında ən son təbəqədir, onların tarixi cəmi yüz əlli ildir. Rusların Azərbaycana köçürülməsi bir neçə mərhələdə baş vermişdir. XIX əsrin otuzuncu illərində 40 malakan ailəsi Zəngəzurun Bazarçay kəndinə köçürülmüşdü. Onlar min səkkiz yüz otuz üçüncü ildə Cəbrayılın Qoşabulaq kəndinə köçürülmüşlər (İsmayılova, 1982, s. 37–38).

Həmin dövrdə – XIX əsrin birinci yarısında Bakı quberniyasında Altıağacda bir rus kəndi, Lənkəran qəzasında isə Vel, Privolnoye, Prişib, Nikolayevka, Astraxanka adlı bir neçə rus kəndləri yaradılmışdır. Yelizavetpol quberniyasında IX əsrin 1930–1970-ci illərində on dörd rus kəndi: Borus, Qolovino, Novo-Dilican, Novo-Qoroloye, Novo-Troitskoye, Mixaylovka və s. yaradılmışdır (Kokov, 1974, s. 38).

Ərəb mənşəli toponimlər. Ərəb mənşəli adlar toponimiyamıza VII əsrdən daxil olmağa başlamışdır. 642-ci ildə Sasani imperiyasına son qoyan ərəblər Qafqaza tərəf irəliləmiş, lakin ərəblərə qarşı baş vermiş Babək hərəkatı böyük tarixi hadisə oldu və sasani imperiyasına son qoymuş ərəb xilafəti zəiflədi. Bunun qarçısını almaq məqsədilə ərəbistandan Azərbaycana xeyli ərəb köçürülmüşdür. Azərbaycana 646–647-ci illərdə ərəb Əl-Amas ibn Kays hakim təyin edilmiş və onun əmri ilə həmin vaxt Ərəbistandan böyük bir ordu (əsgərlər öz ailələri ilə) məskunlaşmaq məqsədi ilə Azərbaycana gətirilmişlər. Bundan sonra VIII əsrdə Şamdan 40 min, Suriyadan 24 min, Misirdən, İrakdan, Omandan və digər ərazilərdən çox sayda ərəblər Azərbaycana köçürülmüşdür. Bir çox hallarda onlar yaşadıqları məkanın adını məskunlaşdıqları kəndlərin adı ilə adlandırmışlar. Məsələn; İraqın Xillə əyalətindən gələnlər Xillə, Xıllı, Xilmilli (Mil düzündəki xillər) və s. adları Azərbaycanda bərpa etmişlər.

İkinci qrupa daxil olan toponimləri V. Əliyev ərəb toponimi kimi deyil, Azərbaycanın dilimizdəki "ərəb" apelyativi ilə yaratdığı adlar hesab etmişdir. Həmin adlardan A. Bakıxanov bəhs etmiş, ərəb etnonimi ilə Qubada iki kəndin, Şəkidə iki kəndin, Şirvanda eyniadlı qəbilənin, onların tirələrinin olduğunu qeyd etmişdir (Bakıxanov, 2010, s. 30).

Monqol mənşəli toponimlər. Hər hansı bir xalqa, dövlətə məxsus coğrafi adların digər ölkəyə keçməsinin əsas səbəbi həmin dövlətin və ya xalqın nümayəndələrinin digər dövlətlə təmasa girməsidir ki, bu da çox zaman hücumlarla, istilalarla, qismən də mədəni əlaqələrlə bağlı olurlar.

Monqol dilinə aid coğrafi adlar da dilimizə XIII əsrin altmışıncı illərindən sonra, Elxanilər sülaləsinin banisi Hülaki xanın yürüşləri zamanı (1256-dan sonra) başlamışdır. Yürüşlər zamanı artan monqol köçəriləri Qazan xanın islahatları nəticəsində Azərbaycanda oturaq həyata məcbur edilmişlər (Budaqov, 1994). Bu hadisə də ölkəmizdə monqol toponimlərinin yaranmasına şərait yaratmışdır. Monqollarla birlikdə Azərbaycana oğuz, qıpçaq etnosları də gəlmişlər. Onların dili Azərbaycan dili ilə eyni mənşəyə malik olan türk dili idi. Monqol sərkərdəsi Molarnoinin Azərbaycan və fars dillərini bilən katibi Kirakos dəftərxana işlərini türk-Azərbaycan dilində aparırdı. Onun guya monqol dilində qeydə aldığı nümunələrin çoxu Azərbaycan dilində artıq mövcud idi. Bu sözlərin sırasında ərən-kişi; əkə-ana, ağa, qardaş; əkəçi-bacı; saqal-saqqal; yüz-üz; tənqiz-dəniz; bitikçi-yazıçı; katib-mirzə və s. onlarla söz olmuşdur (Əliyev, 1998, s. 139).

Araşdırmalardan alınmış nəticələr ondan ibarətdir ki, şovinist pəhləvi-fars rejimi Güney Azərbaycanda Azərbaycan türklərinin dilinə, toponimiyasına böyük təsir göstərmiş və bu gün də göstərməkdədir. Həmin ərazilərimizdəki toponimlərin böyük əksəriyyəti türk mənşəli olmuş, sonralar zaman-zaman bir qismi fars dilinə tərcümə edilmiş,

fars dilinə uyğunlaşdırılmış və fonetik tərkibi, semantik mənası dəyişdirilmişdir. Ona görə də bəzi toponimlərin mənası anlaşılmaz hala düşmüşdür.

Aparılan tədqiqatdan da aydın olur ki, Qərbi Azərbaycan ərazisinin etnotoponimləri hələ də kifayət qədər tədqiq edilməmiş, sovet dövründə isə bu toponimlər sovet rejiminin mənafeyinə uyğun olaraq araşdırılmışdır. Keçən əsrin 90-cı illərində isə Qərbi Azərbaycandan – indiki Ermənistan ərazilərindən azərbaycanlı türklər çıxarılmış, onlardan qalan tarixi adlar isə xəritələrdən silinmişdir.

Nəticə

Aparılmış tədqiqat göstərir ki, Azərbaycan ərazisində qeyri-türk mənşəli toponimlərin mövcudluğu ölkəmizin çoxqatlı etnik və dil tarixinin təbii nəticəsidir. Bu toponimlər əsasən tarixi miqrasiyalar, istilalar, məskunlaşma prosesləri və mədəni təsir əlaqələri nəticəsində formalaşmışdır. Qafqaz, fars, ərəb, rus və monqol mənşəli toponimlərin dil sistemimizə daxil olması Azərbaycan ərazisində müxtəlif xalqların qarşılıqlı əlaqəsini və birgə yaşayışını əks etdirir. Bununla belə, bu toponimlərin əksəriyyəti zaman keçdikcə türk onomastik sisteminə uyğunlaşmış, fonetik və semantik baxımdan milli dilin strukturuna inteqrasiya olunmuşdur.

Ədəbiyyat

1. Adilov, M., Paşa, A. (1987). *Azərbaycan onomastikası*. "Nurlan".
2. Axundov, A. (1983). *Torpağın köksündə tarixin izləri*. "Gənclik".
3. *Azərbaycan toponimlərinin ensiklopedik lüğəti* (2 cilddə). (2007). "Qərb–Şərq".
4. Bakıxanov, A. (2010). "*Gülüstani-İrəm"*.
5. Budaqov, B. (1994). *Türk uluslarının yer yaddaşı*. "Elm".
6. Əhmədov, T. (1984). *El-obamızın adları*. "Gənclik".
7. Əliyev, V. (1998). *Azərbaycan toponimiyası*. "Azərbaycan Dövlət Pedaqoji Universiteti".
8. Rəcəbov, Ə., Məmmədov, Y. (1993). *Orxon–Yenisey abidələri*. "Yazıçı".
9. Исмаилзаде, Д. (1982). *Русское крестьянство в Закавказье в 30-е годы XIX века – начале XX века*.
10. Коков, Дж. (1974*). Адыгская (черкесская) топонимия*. " Эльбрус".